# Təbib

Təsisçi: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. http://www.amu.edu.az № 12 (1695) 28 iyun 2019 - cu il Qiymәti 50 qəpik


# Prezident İlham Əliyevin əhalinin sosial rifahının yüksəldilməsi istiqamətində inqilabi addımları davam edir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əhalinin rifahının yüksəldilməsi məqsədilə növbəti sosial paketi təsdiq etdi. Bu, həyata keçirilən dövlət siyasətinin davamı, silsilə tədbirlərin növbəti mərhələsidir.**

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin dövlət qulluqçularının, hərbi qulluqçuların, hüquq-mühafizə orqanı əməkdaşlarının və digər xüsusi rütbəli şəxslərin, müəllimlərin, habelə dövlət büdcəsindən maliyyələşən bir sıra digər təşkilatlarda çalışan işçilərin əməkhaqlarının böyük dərəcədə artırılması barədə iyunun 18-də imzaladığı sərəncamlar dövlətimizin həyata keçirdiyi sosial siyasətin inqilabi xarakter daşıdığını əyani şəkildə göstərir.

Sosial ədalət prinsiplərinin daha da möhkəmləndirilməsi məqsədilə Prezident tərəfindən minimum əməkhaqqının məbləği 40 faizə yaxın artırılaraq 250 manata çatdırılıb. Minimum əməkhaqqının artımı birbaşa olaraq 950 minədək vətəndaşı əhatə edəcək. Həmin insanlardan 600 mini dövlət sektorunda, 350 mini özəl sektorda işləyənlərdir. Bu artımın təmin edilməsi üçün dövlət büdcəsindən illik 780 milyon, 2019-cu ilin sentyabr-dekabr ayları üzrə 245 milyon manat əlavə vəsait ayrılması təmin olunacaq. Sərəncamla minimum əməkhaqqının məbləğinin 250 manata çatdırılması dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq tarif (vəzifə) maaşları üzrə orta əməkhaqqının da orta hesabla 40 faiz artmaqla 265 manatdan 367 manata çatmasına imkan verir.

İyunun 18-də imzalanan 17 sərəncam ölkədə sosial rifahın yüksəldilməsinin Prezident İlham Əliyevin uğurlu sosial-iqtisadi siyasətinin prioritet istiqaməti olduğunu bir daha təsdiq edir və bu istiqamətdə cari il ərzində artıq ikinci böyük sosial paketin reallaşdırıldığını göstərir.

Dövlətimizin başçısı tərəfindən aparılan sosial-iqtisadi siyasətin qayəsində Azərbaycan vətəndaşının, onun sosial təminatının və rifahının dayandığını özündə növbəti dəfə bariz şəkildə ehtiva edən bu sərəncamlar ümumilikdə 2 milyondan çox insanı əhatə etməklə, həm dövlət orqanlarında, həm də özəl sektorda çalışan şəxslərin maddi vəziyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdıracaq.



## BU SAYIMIZDA



### Bu il Azərbaycan Tibb Universitetini 996 tələbə bitirdi

3

### Böyük Elmi Şuranın 2018/2019-cu tədris ilinin sonuncu iclası ATU-nun "Təbib" istirahət mərkəzində keçirildi



2



### UNİCEF-in məsləhətçiləri ATU-nun rektoru ilə görüşüblər

2

### Rektor Prezident tərəfindən təltif edilən şəxsləri təbrik edib

2



### İctimai Nəzarət və Məsləhət Şurasının üzvləri imtahan prosesini izləyiblər

4

# Böyük Elmi Şuranın 2018/2019-cu tədris ilində sonuncu iclası "Təbib" istirahət mərkəzində keçirildi

**❍ ATU-nun 2018/2019-cu tədris ilinin son Böyük Elmi Şurasının iclası keçirilib. Ənənəvi olaraq ATU-nun Nabranda yerləşən "Təbib" istirahət mərkəzində baş tutan iclasda professor Gəray Gəraybəyli əvvəlcə fəxri ada layiq görülən universitet əməkdaşlarını təbrik edib. Qeyd edib ki, 17 iyun Səhiyyə İşçiləri Günü münasibətilə Prezident İlham Əliyev tərəfindən ATU-nun bir qrup əməkdaşı fəxri adla təltif olunub. Eyni zamanda, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri Vasif Talıbovun 16 may tarixli sərəncamına əsasən ATU-nun Allerqologiya və immunologiya kafedrasının müdiri, professor Lalə Allahverdiyeva "Naxçıvan Muxtar Respublikasına xidmətlərinə görə" döş nişanı ilə təltif olunub. Rektor terapevtik və pediatrik propedevtika kafedrasının dosenti Nəriman Nağıyevi də yubileyi münasibətilə təbrik edib. Daha sonra Böyük Elmi Şuranın iclasında bəzi cari məsələlərə baxılıb, müvafiq məsələlərin həlli ilə bağlı qərarlar qəbul edilib.**



Rektorun tələbələrlə görüşü zamanı ən çox səslənən təkliflərdən biri də öz həllini tapıb. Belə ki, Elmi Şuranın qərarına əsasən, universitetdə dərs saatlarının vaxtı dəyişdirilib. Bundan sonra I dərs saat 08:30-10:00, 15 dəqiqəlik fasilədən sonra II dərs saatı 11:15-11:45, 45 dəqiqəlik fasilədən sonra III dərs saat 12:30-14:00 və 15 dəqiqəlik fasilədən sonra sonuncu IV dərs 14:15-15:45 arasında olacaq.

Bundan əlavə, I kursa qəbul olunacaq tələbələrdən başlayaraq iki semestrdə tədris olunan kredit sayı az olan fənlər birləşdiriləcək bir semestrdə tədris olunacaq. Beləliklə, həm də imtahan sayı azalmış olur.

Qərara əsasən, I kurs tələbələri üçün fənlər fakültələr üzrə növbəli tədris olunacaq. Növbəti tədris ilində universitetin ayrı-ayrı fakültə və kurslarında tədris yeni iş rejimində aparılacaq.

Elmi Şuranın iclasında Fizika və informatika kafedrasının "Tibbi və bioloji fizika", Ftiziatriya kafedrasının isə "Ağciyər xəstəlikləri" adlandırılmasına da qərar verilib.

2019/2020-ci tədris ilindən etibarən, rektorun qəbul prosesində də dəyişikliklər olacaq. Belə ki, növbəti tədris ilində rektorun qəbul günləri yalnız öncədən qeydiyyat aparılmaqla Bazar ertəsi və Cümə axşamı saat 15:00 - 17:00 arasında keçiriləcək. Qəbula müəllimlər, tələbələr və vətəndaşlar yazıla bilərlər. Öncədən qeydiyyatdan keçməyən şəxslər qəbula buraxılmayacaq.



Şura iclasında Dövlət Attestasiya Komissiyasının I müalicə-profilaktika fakültəsi üzrə sədr müavini, professor Şərif Mahalov, II müalicə-profilaktika fakültəsi üzrə sədri, t.e.d. Teymur Qafarov, İctimai səhiyyə fakültəsi üzrə sədri, t.ü.e.d. Akif Salehov, Stomatologiya fakültəsi üzrə sədri, professor Mahir Əliyev, Əczaçılıq fakültəsi üzrə sədri, b.e.d. Şəfiqə Topçiyeva, Hərbi tibb fakültəsi üzrə isə fakültənin dekanı, polkovnik-leytenant Çingiz Əlləzovun hesabatları dinlənilib.

# "Təbib" istirahət mərkəzinin yeni korpusu istifadəyə verilib

**❍ Bu tədris ili üçün Azərbaycan Tibb Universitetinin Böyük Elmi Şurasının yekun iclası Nabranda yerləşən "Təbib" İstirahət mərkəzində keçirilib.**



Şura iclası ilə yanaşı, burada həm də istirahət mərkəzinin yeni korpusunun açılışı baş tutub. ATU-nun rektoru, professor Gəray Gəraybəyli istirahət mərkəzində hər il yeni korpusların açılmasını sevindirici hal kimi qiymətləndirib. Rektor mərkəzdə mütəmadi olaraq abadlıq işlərinin aparıldığını, iki il öncə müasir yeməkxananın qurulduğunu, ötən il isə təmir olunmuş ilk korpusun açıldığını xatırladıb.



Professor G.Gəraybəyli bu istiqamətdə işlərin gələcəkdə də davam etdiriləcəyini, və universitet əməkdaşlarının istirahətinin təşkili üçün davamlı olaraq tədbirlərin görüləcəyini bildirib.

ATU-nun Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Cahangir Qasımovun sözlərinə görə, abadlaşma işləri komitə tərəfindən maliyyələşdirilir. Aparılan işlərə rektor şəxsən nəzarət edir.

Hətta ilk açılışdan öncə səhiyyə naziri Oqtay Şirəliyev də istirahət mərkəzində aparılan işlərlə şəxsən tanış olub.

Bu il istifadəyə verilən korpusda 4 nəfərlik 7 otaq, 2 nəfərlik 3 otaq fəaliyyət göstərir. Otaqlar istirahət edənlərin rahatlığı üçün lazimi avadanlıqlarla təmin olunub. Həmçinin, düşərgədə bu il qazanxana quraşdırılıb. Bu, gələcəkdə "Təbib" İstirahət Mərkəzinin qış mövsümündə də fəlaiyyətinə imkan yaradacaq.

Hər il ATU-nun 800 nəfərə yaxın professor-müəllim heyəti, texniki işçilər və onların ailələri, o cümlədən tələbələr bu mərkəzdə istirahət edə bilir. Hər ilin may-iyun aylarında düşərgədə təmir və abadlıq işləri aparılır. 2013-cü ildən etibarən "Təbib" istirahət ocağının maliyyələşdirilməsi tam olaraq Həmkarlar İttifaqı Komitəsinin ixtiyarına verilib.

# UNİCEF-in məsləhətçiləri ATU-nun rektoru ilə görüşüblər

◆ BMT-nin Uşaqlara Yardım Fondu – UNİCEF-in Azərbaycan təşkilatı 2021-2025-ci illər üzrə növbəti ölkə proqramını hazırlayır. Bununla əlaqədar UNİCEF-in Region üzrə Sağlıq və Təhsil Məsləhətçisi cənab Basil Rodriques Azərbaycan Tibb Universitetində olub və ATU-nun rektoru, professor Gəray Gəraybəyli ilə görüşüb.



Görüşdə iştirak edən UNİCEF-in Sağlamlıq və qidalanma üzrə nümayəndəsi Töhfə Cəmilova təmsil etdiyi təşkilatın 25 ildən çoxdur ki, Azərbaycanla çalışdığını deyib. O, UNİCEF-in hökumətlə birgə növbəti 5 illik proqramın hazırlanması, sənəddə təhsil və səhiyyə üzrə vacib məqamların əks olunması üçün ATU ilə əməkdaşlığın ümumi işə böyük töhfə verəcəyindən əminliyini bildirib.

Professor Gəray Gəraybəyli ATU əməkdaşlarının UNİCEF-in təşkilatçılığı ilə keçirilən tədbirlərdə, proqramların reallaşmasında yaxından iştirak etdiklərini vurğulayıb: "Son 10 ildə universitetimizin yürütdüyü əsas strateji xətlərdən biri beynəlxalq əlaqələrin genişləndirilməsidir. Bir çox xarici ölkələrin, həm Avropa, həm də digər regionların universitetləri və eləcə də bir sıra beynəlxalq təşkilatlarla geniş əlaqələrimiz var. UNİCEF-lə əməkdaşlıq bu əlaqələrin daha da dərinləşməsinə təkan verəcək".

Professor G.Gəraybəyli pediatriyanın həm Azərbaycan səhiyyəsi, həm də ATU üçün önəmli sahələrdən biri olduğunu qeyd edib. Bu səbəbdən UNİCEF-in ölkə proqramında pediatriya ilə bağlı məqamların əks olunmasını vacibliyini bildirib. Xüsusilə, tələbələrə dünyada mövcud praktik vərdişlərin təlqin edilməsi ilə bağlı yardıma ehtiyac olduğunu vurğulayıb. Tələbələrin praktik biliklərinin artırılması məqsədilə treninq mərkəzlərinin yaradılmasında UNİCEF-in kömək göstərə biləcəklərini qeyd edib.

UNİCEF-in Region üzrə Sağlıq və Təhsil Məsləhətçisi Basil Rodriques regionda ailə həkimi institutunun yaradılmasının vacibliyindən danışıb. Onun sözlərinə görə, UNİCEF-in bu dəfəki ölkə proqramında əsas bəndlərdən biri pediatriya sahəsinin inkişafı, uşaqlara ilkin tibbi yardımın keyfiyyətli təşkil və ailə həkimi institutunun yaradılması ilə bağlı olduğunu qeyd edib.

Görüş zamanı qonaqlara ATU-da mövcud təhsil və imtahan sistemi, tədrisdə aparılan innovativ yeniliklər, elektron universitet proqramının tətbiqi haqqında geniş məlumat verilib. Həmçinin, birgə əməkdaşlığın istiqamətləri müzakirə olunub.

Görüşdə ATU-nun elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov və beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Orxan İsayev iştirak ediblər.

# Rektor Prezident tərəfindən təltif edilən şəxsləri təbrik edib

**❍ İyunun 18- də Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli Prezident İlham Əliyev tərəfindən medal və fəxri adlarla təltif edilən ATU-nun əməkdaşlarını təbrik edib. Onların universitetdə tibbi kadrların hazırlanmasında böyük zəhmətləri olduqlarını qeyd edib: "Siz uzun illər insanların sağlamlığının keşiyində dayanmısınız.**



Həm də gələcək üçün savadlı kadrların, yüksək ixtisaslı həkimlərin yetişdirilməsində böyük əməyiniz olub. Bu baxımdan cənab Prezident tərəfindən yüksək fəxri adlarla təltif olunmanız bizi sevindirir".

Qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyevin 11 iyun 2019-cu il tarixli sərəncamı ilə ATU-nun Patoloji anatomiya kafedrasının müdiri, professor Ədalət Həsənov Azərbaycanda səhiyyə sahəsində səmərəli fəaliyyətinə görə "Tərəqqi" medalı, Yoluxucu xəstəliklər kafedrasının professoru Nərgiz Hüseynova, İnsan anatomiyası və tibbi terminologiya kafedrasının dosenti Arifə Məmmədova isə Azərbaycan səhiyyəsinin inkişafında xidmətlərinə görə "Əməkdar müəllim" adı ilə təltif ediliblər.

Görüşdə ATU-nun tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev, elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov, Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Cahangir Qasımov iştirak ediblər.

**ATU-nun mətbuat xidməti**

**“And içirəm ki, verdiyim sözə və götürdüyüm öhdəliklərə əməl edəcəyəm, öyrəndiklərimi insanların sağlığına qovuşması üçün istifadə edəcəyəm”. Bu andı gələcəyin həkimləri – Azərbaycan Tibb Universitetinin məzunları iyunun 26-da keçirilən təntənəli Məzun Günündə səsləndirdilər. Onlar Həkim andı içərək bu peşənin davamçıları olduqlarından şərəf duyduqlarını bildirdilər.**



# Bu il Azərbaycan Tibb Universitetini 996 tələbə bitirdi

“Elektra Events Hall”da baş tutan ATU-nun 2019-cu il buraxılışına həsr olunmuş təntənəli mərasiminin aparıcısı Elxan Qaraxanoğlu tədbir iştirakçılarını salamladıqdan sonra təbrik üçün ilk sözü universitetin rektoru, professor







Gəray Gəraybəyliyə verdi. Təbrik nitqində məzunlarımızın universiteti bitirərək həkim ordusu sıralarına qoşulduğunu vurğulayan rektor bunun həm çox məsuliyyətli, həm də şərəfli yol olduğunu bildirdi: “Təsadüfi deyil ki, Ulu Öndərimiz Heydər Əliyev Azərbaycanda həkim və müəllimlərin rolunu yüksək qiymətləndirmiş, daim diqqət mərkəzində saxlamışdır. Ulu Öndərimizin layiqli davamçısı olan Prezident İlham Əliyev cənabları təhsilimizin inkişafı naminə həmişə seçilən tələbələri diqqət və qayğıdan kənarda saxlamır. Yüksək bal ilə Universitetimizə qəbul olunan tələbələrin Prezident Təqaüdünə layiq görülməsi buna bariz nümunədir”.

Rektor G.Gəraybəyli bu günün hərbi fakültənin məzunları üçün ikiqat əlamətdar tarix olduğunu xatırlatdı. Çünki Məzun Günü Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin yaranmasının 101 illiyinə təsadüf edir: “Bu gün həm də sizin peşə bayramı gününüzdür. Fakültəmiz 74 məzununu layiqli hərbi həkim və hərbi feldşer kimi Vətənə xidmətə yollayır. Bütün hərbiçilərimizi təbrik edir və gələn il Silahlı Qüvvələr Gününü Qarabağda, Xankəndində qeyd etməyi arzulayıram”.

Professor Gəray Gəraybəyli məzunları və onların valideynlərini təbrik edərək hər kəsə gələcəkdə sayılıb-seçilən həkim və mütəxəssis olmağı arzuladı.









Sonra təntənəli andiçmə mərasimi keçirildi. Hərbi Tibb Fakültəsinin məzunu Şamxal Hüseynov Həkim Andını cümlə-cümlə oxudu və məzunlar onu təkrar etdi. Bir qrup əlaçı məzunlara diplomlar təqdim olundu. Həmçinin, Azərbaycan Tibb Universitetinin “AMU fires” komandasının üzvləri 3 il ərzində Rusiya Federasiyasının Stavropol şəhərində keçirilən olimpiadada uğurlu çıxışına görə fəxri fərmanlarla təltif olundular.

ATU-nun Ailə təbabəti kafedrasının müdiri, dosent Mustafa Salihov bu şərəfli peşəni seçən gənclərə uğurlar diləyərək onların Azərbaycan xalqının sağlamlığı keşiyində şərəf və ləyaqətlə dayanacaqlarına inamını ifadə etdi.

Valideynlər adından isə II müalicə-profilaktika fakültəsini fərqlənmə diplomu ilə bitirmiş Məhərrəm Alimlinin atası, ixtisasca həkim olan Nadir Alimov çıxış edərək məzunlara təbriklərini çatdırdı.

Ənənəyə görə hər il universitetin məzunları həkimlərin simvolu sayılan lanset, stetoskop və ağ xalatı I kurs tələbələrinə təqdim edirlər. Bu il estafeti I Müalicə-profilaktika fakültəsinin məzunu, Prezident təqaüdçüsü Leyla Ağayevadan I kurs tələbəsi, Prezident təqaüdçüsü Nərmin Əhədova qəbul etdi.

Məzunlar universitetin himnini səsləndirdikdən sonra mərasim bədii hissə ilə davam etdi. Bu ilin sonunda 60 illik yubileyi qeyd olunacaq “Çinar” rəqs ansamblının və universitetin “Şəfa” xalq çalğı alətləri ansamblının çıxışları tamaşaçı alqışları ilə qarşılandı. Hərbi tibb fakültəsinin II kurs tələbəsi Nicat Nəsirli “Aman, aman ayrılıq”, IV kurs tələbəsi Nadır Nəbiyev isə “Cənab Leytenant” mahnısı ilə tədbir içtirakçılarına duyğulu anlar yaşatdılar.

Qeyd edək ki, bu il 996 nəfər ATU-nun məzunu olur, ali məktəbimizi 818 nəfər, o cümlədən 88 nəfər fərqlənmə ilə bitirir. Ən çox məzun II müalicə-profilaktika fakültəsindən olub - 348 nəfər. Məzunların 907 nəfəri həkim, 74-ü əczaçı, 15-i isə hərbi feldşer ixtisasına yiyələnib.

Azərbaycan Tibb Universitetində 25 müxtəlif ölkədən - Türkiyə, İran, İordaniya, Suriya, İraq, Pakistan, Sudan, Rusiya Federasiyası, Yəmən, Fələstin, Əfqanıstan, İsrail, Misir, Nigeriya, Hindistan, İsveç, Ukrayna, Özbəkistan, Türkmənistan, Qazaxıstan, Gürcüstan, Finlandiya, Livan, Liviya, Çin və s. kimi ölkələrdən çoxsaylı xarici tələbə təhsil alır.

**Günel ASLANOVA**





Təbib

28 iyun 2019-cu il

# Rektor imtahanların gedişini izləyib

◆ İyunun 13- də professor Gəray Gəraybəyli Azərbaycan Tibb Universitetində imtahanların gedişini izləyib. Rektor ATU-da buraxılış kurslarının Obyektiv Strukturlaşdırılmış Klinik İmtahana (OSKİ), eləcə də İmtahan Mərkəzində (İM) test imtahanlarına baxış keçirib.



Qeyd edək ki, tələbələr müvafiq fəndən bacarıq imtahanını verdikdən sonra test üsulu ilə nəzəri imtahanlara keçid alırlar. Universitetin İctimai səhiyyə fakültəsində isə buraxılış imtahanları Obyektiv Strukturlaşmış Praktik İmtahan (OSPİ) üsulu ilə keçirilir.

Professor G.Gəraybəyli tələbələrlə söhbət aparıb, imtahanla bağlı onları maraqlandıran məsələləri müzakirə edib. Tələbələr imtahan sualları ilə bağlı fikirlərini universitet rəsmilərinin diqqətinə çatdırıblar.

İmtahandan sonra professor G.Gəraybəyli ATU-nun 5 saylı korpusunda İnformasiya Sistemlərinin Təşkili və İdarəetmə Mərkəzi üçün yaradılan şəraitlə də tanış olub. Burada elektron jurnalın, sistemin gedişatını izləyib.

# İmtahanlarda obyektivlik və şəffaflıq əsas şərtdir

❍ Ölkəmizin bütün ali təhsil müəssisələrində olduğu kimi Azərbaycan Tibb Universitetində də yay imtahan sessiyasının qızğın bir dövrüdür.



İyunun 14-də Dövlət buraxılış imtahanlarının gedişatını izləmək üçün ATU-nun Əczaçılıq fakültəsinin kafedraları üzrə yekun dövlət attestasiyasının keçirildiyi 2 saylı tədris binasında olduq. Biz imtahanın keçirildiyi otağa daxil olanda ilk baxışdan hiss olunurdu ki, burada obyektivlik və şəffaflıq gözlənilmiş, hər bir tələbənin hazırlaşıb sərbəst cavab verməsi üçün əlverişli şərait yaradılmışdır.

Kafedraların reaktiv və avadanlıqlarla təchizatının yaxşılaşması nəticəsində demək olar ki, əksər diplom işlərində eksperimental xarakterli təcrübələrin nəticələri verilirdi. Bütün bunlar buraxılış diplom işlərinin müdafiəsinin həyata keçirilməsinin səviyyəsinin keyfiyyət baxımından yüksək olmasını göstərir. Bu müsbət hal bizim də dinlədiyimiz tələbələrdən Həsən Məlikov, Nərgiz Muradbəyli, Şəbnəm Alxasova və Ülviyyə Kərimovanın çıxışlarında özünü büruzə verdi.

Buraxılş diplom işlərinin müdafiəsi ilə daha yaxından tanış olmaq, və eləcə də builki məzunlar haqqında statistik məlumatlar almaq üçün Əczaçılıq fakültəsinin dekanı, dosent Kamandar Yaqubovla söhbət etdik.

Dekan K. Yaqubov qeyd etdi ki, fakültədə Buraxılış diplom işlərinin müdafiəsinin qiymətləndirilməsi iki mərhələdə aparılır. Əvvəlcə kafedrada buraxılış işinin rəhbəri və rəyçilər tərəfindən ilkin qiymətləndirmə həyata keçirilir. Burada işlər maksimum 50 bala qədər qiymətləndirilir. İkinci mərhələdə isə dövlət attestasiya komissiyası üzvlərinin qarşısında diplom işinin məzmunu çatdırılır, onların suallları cavablandırılır və bunların əsasında qiymətləndirmə aparılır. Burada da tələbəyə maksimum 50 bal verilə bilər.

Onun sözlərinə görə, mərhələlərin hər birində qiymətləndirmə meyarları fərqlidir: "Birinci mərhələdə diplom işinin tərtibatı, tələbənin mövzunu mənimsəməsi, illüstrativ materiallar və s. kimi məsələlərə üstünlük verilirsə, ikinci mərhələdə attestasiya komissiyasının üzvlərinin qarşısında yerinə yetirilən təcrübələr qiymətləndirilir. Bu zaman tələbənin işi nə dərəcədə mənimsədiyinə, sualları hansı səviyyədə cavablandırmasına diqqət yetirilir".

Dekan həmçinin onu da dedi ki, imtahan zamanı tələbə işin məzmununu 7-8 dəqiqəlik çıxışı zamanı hərtərəfli izah edə bilməlidir: "Fakültədə buraxılış işləri 5 ixtisas üzrə yerinə yetirilir. Bunlar əczaçılıq işinin təşkili, əczaçılıq texnologiyası, farmakoqnoziya, əczaçılıq kimyası və toksikoloji kimya fənləridir. Yekun dövlət attestasiya komissiyasının tərkibinə göstərilən ixtisasların hər biri üzrə yüksək səviyyəli mütəxəssislər daxil edilib.

Göstərilənlərlə yanaşı, xüsusilə qeyd etmək istəyirəm ki, bu il Buraxılış diplom işlərinin müdafiəsi ötən illərlə müqayisədə keyfiyyətcə xeyli irəliləyişlərlə müşahidə edilir. Burada həm Buraxılış diplom işlərinin mövzularının müasirliyi və aktuallığı, həmçinin diplom işlərinin tərtibatı, eləcə də tələbələrin işlərini daha yaxşı məruzə etməsi və sualları cavablandırması istiqamətində olan müsbət dinamikanı vurğulamaq istəyirəm.

Rektorun müvafiq əmrinə əsasən, hazırda 74 nəfər Buraxılış diplom işlərinin müdafiəsində iştirak edir. Buraxılış işlərinin müdafiəsinin hər gün 9-10 nəfər olmaqla, 8 gün ərzində aparılacağı planlaşdırılıb.

Bu il Əczaçılıq fakültəsini 80 tələbə bitirir. Onlardan 68 tələbə diplom müdafiəsinə buraxılıb. 12 nəfər isə akademik və maliyyə borclarına görə müdafiəyə buraxılmayıb. 24 nəfər əvvəlki illərdən qalan məzunlardır. Bunlardan diplom müdafiəsinə buraxılan 6 tələbənin 3-ü yerli, 3-ü isə əcnəbi tələbələrdir".

Qeyd edək ki, iyunun 1-dən etibarən Azərbaycan Tibb Universitetində yay imtahan sessiyasına start verilib. İmtahanlar başlayandan bəri prosesin gedişi ATU-nun rektoru, professor Gəray Gəraybəylinin diqqət mərkəzindədir. Rektor vaxtaşırı Dövlət İmtahan Komissiyasının üzvləri, nəzarətçilər, tələbələr ilə görüşüb, imtahanların gedişi ilə maraqlanaraq onların fikir və təkliflərini dinləyib, bununla bağlı müəllimlərə lazımi tapşırıqlarını verib. Gəray müəllim həmçinin imtahanları uğurla verən tələbələri təbrik edərək onlara gələcək karyeralarında uğurlar arzulayıb.

**Mənsur Ələkbərli**

# İctimai Nəzarət və Məsləhət Şurasının üzvləri imtahan prosesini izləyiblər

**İyunun 21-də Azərbaycan Tibb Universitetinin rektoru yanında İctimai Nəzarət və Məsləhət Şurasının üzvləri Tədris Cərrahiyyə Klinikasında keçirilən I və II müalicə-profilaktika fakültələrinin buraxılış kurs tələbələri üçün yekun Dövlət Attestasiyası Obyektiv Strukturlaşdırılmış Klinik İmtahanın (OSKİ) gedişatını izləyiblər.**

İctimai Nəzarət və Məsləhət Şurasının sədri, millət vəkili, həkim-qastroenteroloq İlham Məmmədov və şuranın üzvləri - "İki sahil" qəzetinin redaktoru, Mətbuat Şurası İdarə Heyətinin üzvü Vüqar Rəhimzadə, ATU-nun Əczaçılığın texnologiyası və idarəçiliyi kafedrasının baş müəllimi, "Gənc vətəndaş" İctimai Birliyinin sədr müavini Aidə Bəndəliyeva, "Cəmiyyətin və Vətəndaş Münasibətlərinin İnkişafı" İctimai Birliyinin sədri, QHT-lərin Antikorrupsiya Şəbəkəsinin üzvü Əhməd Abbasbəyli və tələbə-dekan Məhərrəm Alimli tələbələrin praktik bacarıqlarının necə qiymətləndirilməsi ilə maraqlanıblar.



İmtahanın gedişində tələbələrin və ekspertlərin fikirlərini də öyrənən şura üzvləri imtahan prosesinin çox rahat keçdiyini müşahidə ediblər.

Artıq iki ildir ki, Azərbaycan Tibb Universitetində İctimai Nəzarət və Məsləhət Şurasının yaradıldığını deyən şuranın üzvü Aidə Bəndəliyeva son illərdə ATU-da aparılan islahatların öz bəhrəsini verdiyini söyləyib: "Şura üzvləri tərəfindən bütün kurslarda kütləvi və fərdi şəkildə söhbətlər aparılır, həm qış, həm də yay sessiyasında mütəmadi olaraq reydlər keçirilir. İmtahan Mərkəzinin, Appelyasiya Komissiyasının işi ilə yaxından tanış oluruq.

Bu gün də Daxili xəstəliklər, Cərrahi xəstəliklər və Urologiya ixtisasları üzrə keçirilən yekun Dövlət Attestasiyası Obyektiv Strukturlaşdırılmış Klinik İmtahanın gedişini izlədik. Müşahidələrimiz göstərir ki, tələbələr bacarıq imtahanlarına məsuliyyətlə hazırlaşıb və bu bizi çox sevindirir. Eyni zamanda onların təcrübi biliklərini nümayiş etdirməsi üçün də hər cür şərait yaradılıb".

Universitetin tədris binalarında rəy qutularının yerləşdirildiyini bildirən Aidə xanım müəllimlərin dərsə münasibəti, dərsin keyfiyyəti, sualların həllində rast gəlinən problemlər, müəllimlərlə tələbələr arasında etik münasibətlər, eləcə də digər məsələlərə dair məktublar aldıqlarını, həmin məktubların komissiya tərəfindən araşdırılaraq universitet rəhbərliyinə məruzə olunduğunu, mövcud nöqsanların aradan qaldırıldığını diqqətə çatdırıb.

Cəmiyyətin bütün sahələrində olduğu kimi, təhsildə də ictimai nəzarətin olmasının əhəmiyyətindən danışan şuranın sədri, millət vəkili İlham Məmmədov da imtahanın gedişi barədə təəssüratlarını bizimlə bölüşüb: "Komissiya üzvlərinin ümumi rəyi budur ki, Azərbaycan Tibb Universitetində tədrisin keyfiyyəti çox yaxşılaşıbdır. Biliyin qiymətləndirilməsində dünya standartlarına cavab verən metodologiyadan istifadə olunur. Əsas məqsəd Azərbaycan xalqının sağlamlığı keşiyində duran savadlı həkimlərin yetişdirilməsidir. Təsadüfi deyil ki, imtahanin gedişində nəzəri biliklərin xüsusi mulyajlar üzərində tətbiqinin, laborator-funksional diaqnozun qoyulması üçün təcrübi proseslərin icra mexanizminin necə aparıldığının şahidi olduq".

İctimai nəzarətin vətəndaş cəmiyyəti ilə qurumlar arasında əməkdaşlığın daha da genişlənməsinə səbəb olduğunu deyən İ.Məmmədov imtahan prosesinin təkmilləşdirilməsinin gələcək həkimlərin fəaliyyətində müstəsna rol oynayacağını vurğulayıb.

Qeyd edək ki, imtahan zamanı buraxılış kurs tələbləri 10 bacarıq üzrə praktik vərdişlərini nümayiş etdiriblər.

**ATU-nun mətbuat xidməti**

# OXUCULARA XİDMƏT İŞİ DAVAMLI OLARAQ TƏKMİLLƏŞDİRİLİR

**◆ Ölkəmizdə yeganə ali tibb təhsili verən qocaman universitet - Azərbaycan Tibb Universiteti 1930-cu ildən fəaliyyət göstərir. Universitetin Əsaslı Kitabxanası da elə həmin ildə Bakı Dövlət Universiteti kitabxanasının tibb ədəbiyyatı bazasında Azərbaycan Tibb İnstitutunun kitabxanası kimi yaradılmışdır.**

Əsaslı kitabxananın yaradılmasında, milli-tibbi ədəbiyyatla təmin olunmasında, oxucuların informasiyaya olan ehtiyaclarının ödənilməsinin təşkilində görkəmli dövlət xadimi, professor Əziz Əliyevin böyük xidməti olmuşdur. Onun çoxşahəli fəaliyyəti, müstəsna xidmətləri bu gün də yad edilir. Əziz Əliyev instituta rəhbərlik etdiyi illərdə ilk tibbi dərsliklər yazılmış, rus dilində olan bəzi dərsliklər Azərbaycan dilinə tərcümə olunmuşdur. Moskvadan, Xarkovdan, Kiyevdən gətirtdiyi dərsliklər hesabına kitabxananın fondu tibbi ədəbiyyatla zənginləşmişdir. Azərbaycan tibb elminin inkişafında mühüm rolu olan kitabxananın fəaliyyəti daim universitet rəhbərliyinin diqqət mərkəzində olmuşdur. Elektron informasiya sahəsində bir çox dəyişikliklər həyata keçirilmiş, kitabxana yeni elektron avadanlıqlarla təchiz olunmuşdur.

Hazırda oxuculara xidmətin daha da təkmilləşdirilməsi istiqamətində iş aparılır. Müvafiq dünya standartlarına uyğun olaraq elektron formaya keçilməsi, elektron kataloqlarının yaradılması və cəmiyyətin inkişafına birbaşa təsir göstərən elektron mənbələrin təmini məqsədilə 2010-cu ildə Universitet rəhbərliyi tərəfindən Rusiyadan «İRBİS-64» adlı elektron kitabxana layihəsi alınmışdır.

Oxucuların məlumatla onlayn rejimdə tanış ola biləcəyi Virtual oxu zalı 2011-ci ilin əvvəllərindən Əsaslı kitabxananın tərkibinə verilmişdir. Burada 16 kompüter yerləşdirilmişdir ki, bunlardan 15-i oxucuların istifadəsindədir. Virtual oxu zalının fəaliyyəti geniş proqramlar üzərində təşkil edilmişdir. Oxucuların internetlə bağlı bütün sorğularına cavab verilir, onlara internetdə bəzi proqramlardan istifadə qaydaları izah olunur. Bu sahədə elektron kitabxana istifadəçilərinə daha çox diqqət yetirilir. Məlum olduğu kimi, Azərbaycan Tibb Universitetinin rəhbərliyi və Əsaslı kitabxana Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı" haqqında verdiyi sərəncama uyğun olaraq bir çox layihələrdə, həmçinin, Azərbaycan Kitabxana İnformasiya Konsorsiumunda (AzKİK) fəal iştirak edir.

Ebsco nəşriyyatının http://search.ebscohost.com bazasından istifadə üçün konsorsium daxilində hər il universitet tərəfindən ödəniş aparılır. Bu baza tərkibində konsorsium tərəfindən bəzi əlavə paketlər hədiyyə olaraq təqdim olunur ki, bunlar da oxucular üçün çox faydalı axtarış sistemləridir.

Əsaslı kitabxananın nəzdində olan virtual oxu zalı universitet tələbə və müəllimlərinin hər gün istifadə etdikləri informasiya məkanıdır. Deməkolar ki, bəzi tələbələr hər gün bu zala müraciət edirlər.

Virtual oxu zalında oxucu sorğularına cavab olaraq fondda mövcud olan elektron ədəbiyyatla yanaşı, internet axtarış metodundan da istifadə edərək oxucuların sorğularına tam şəkildə cavab verilir. Eyni zamanda zalda elektron resurslar fondu mövcuddur, buraya müxtəlif illərdə tibb elminin müxtəlif sahələrinə dair elmi konfrans və simpoziumların CD və DVD-ləri və digər elektron materiallar daxildir.

Bunlarla yanaşı, elmi kitabxana olaraq ənənəvi abonement xidmətləri, kataloqlardan istifadə xidmətimizin əsasını təşkil edir. Saat 08.30-dan 22.00-dək açıq olan oxu zallarımızın yardımçı fondu oxucuların istifadəsindədir. Yardımçı fond tələbələrin sorğusu əsasında komplektləşdirilmişdir. Kitabxana hər il oxucuların marağını nəzərə alaraq müxtəlif qəzet və jurnallara abunə olur. Bu il 41 adda elmi jurnala, 14 adda qəzetə abunə olunmuşuq.

Kitabxanamız özünün e-mail poçtu (amu_lib@mail.ru) vasitəsilə də maraqlandığı təşkilatlar, cəmiyyətlər və şəxslərlə əlaqə saxlayır, bir çox xarici ölkə kitabxanaları ilə (Rusiya Dövlət Kitabxanası, Rusiya Dövlət Tibb Kitabxanası, Ukrayna Dövlət Kitabxanası, Ukrayna Dövlət Elmi Tibb Kitabxanası, Belarus Milli Kitabxanası , Belarus Respublika Elmi Tibb Kitabxanası) virtual mübadilə işi həyata keçirir. Bütün bunlar belə bir nikbin nəticəyə gəlməyə tam şəkildə əsas verir ki, yaxın gələcəkdə dünyanın nüfuzlu tibbi təhsil müəssisələri ilə əlaqə yaradan Əsaslı kitabxananın kollektivi bundan sonra da öz oxucularına yüksək səviyyədə xidmət göstərəcəkdir.



Bugünkü kitabxanalar müasir dövrün ən qiymətli informasiya mənbələridir. Bu baxımdan Azərbaycan Tibb Universitetinin Əsaslı kitabxanasının zəngin elmi-tibbi ədəbiyyatın mühafizəçisi, tibb sahəsinin tədris mərkəzi olaraq Azərbaycan tibb elminin inkişafında mühüm rolu vardır.

Müasir dövrdə oxucuların informasiya ilə təmin olunması, informasiya resurslarının mühafizəsi kitabxanaların qarşısında duran əsas vəzifələrdəndir. Hörmətli rektor, professor Gəray Gəraybəylinin diqqət və qayğısı sayəsində kitabxanamızda elektron informasiya xidməti yüksək səviyyədə həyata keçirilir. Buna misal olaraq göstərə bilərik ki, AzKİK daxilində, eyni zamanda "İRBİS – 64" proqramının alınmasına, hər il yenilənməsinə 16 nüfuzlu ali məktəb arasında ATU hər il mütəmadi olaraq üzvlük haqqını vaxtında keçirir. Biz də bu sahədə öz üzərimizə düşən vəzifəni layiqincə həyata keçirməyə çalışırıq. Oxucular arasında həmin elektron bazaların təbliğatını yüksək səviyyədə aparırıq. Bunun nəticəsidir ki, axtarış səviyyəsinə görə həmin universitetlər arasında ATU ilk 3 yeri bölüşdürür.

Qeyd edək ki, yaxın illərdə kitabxanamız əsaslı təmir olundu və oxucuların rahatçılığı üçün hər cür şərait yaradıldı. Bütün bunlar üçün çoxsaylı oxucularımız və əməkdaşlarımız adından universitet rəhbərliyinə dərin minnətdarlığımızı bildiririk.

Son aylarda alınan xeyli sayda dərsliklər də bu sahəyə rəhbərlik tərəfindən xüsusi diqqət ayrıldığını bir daha təsdiq edir.

Bu zəngin bilik xəzinəsi tibbi ədəbiyyatla yanaşı elmin müxtəlif sahələrini əks etdirən ədəbiyyatla da zəngindir. Həmçinin, burada dissertasiya və avtoreferatlar, dövri nəşrlər və elektron nəşrlər saxlanılır.

Yüksək ixtisaslı həkimlər yetişdirən Azərbaycan Tibb Universiteti həm də xarici ölkələrin vətəndaşları tərəfindən dəyərləndirilən ali məktəblərdən biridir. Bunun nəticəsidir ki, burada təhsil alan xarici tələbələrin sayı günü-gündən artır və həmin tələbələr də kitabxanamızın daimi oxucularıdır.

Gələn il doğma universitetimizin 90 illik yubileyi tamam olur. Yubiley ərəfəsində ideoloji sahənin aparıcı qüvvələrindən olan kitabxana kollektivi öz üzərlərinə düşən vəzifələri yerinə yetirmək üçün səylə çalışır.

Bütün sahələrdə olduğu kimi tibb mütəxəssisləri də kitabxanalardan istifadədə yeniliklər axtarırlar. Fəaliyyətini bu yeniliklərin tətbiqinə yönəldən kollektivimiz bu gün öz işini günün tələbləri səviyyəsində qurmaq üçün bütün imkanlardan səmərəli istifadə edir.

**Ziyafət EMİNOVA,**
*Əsaslı kitabxananın direktoru, tarix elmləri üzrə fəlsəfə doktoru*

## «Təbib» qəzetinin baş redaktoru Eldar İsmayıl Türkiyədə mükafatlandırıldı

**◆ Bu günlərdə Avrasiya Senet Kültür Edebiyat ve Bilim Federasyonunun (ASKEF) İstanbulda geniş toplantısı keçirilib.**




Toplantıda 17 türkdilli ölkənin tanınmış ədəbiyyat və elm adamları iştirak edib. Bu mötəbər tədbirə Azərbaycandan da bir qrup tanınmış şair və yazarlar qatılaraq toplantının əhəmiyyəti ilə bağlı fikirlərini bildirib, yazdıqları şeirlərdən maraqlı nümunələr səsləndiriblər.

Ədəbiyyatımızın tanınmış simalarından Eldar İsmayıl Böyüktürk toplantıda çıxış edərək, müasir Azərbaycan ədəbiyyatı və poeziyasının bugünkü vəziyyətindən, ortaq türk ədəbiyyatının yaradılmasının zəruriliyindən, ayrı-ayrı türkdilli ölkələrdə yaranan ədəbiyyat nümunələrinin ortaq türk ədəbiyyatının yaradılması istiqamətində müsbət təsirindən və. s məsələlərdən söhbət açıb.

İki gün davam edən toplantı olduqca maraqlı keçib.

İştirakçılardan yalnız Eldar İsmayıl Böyüktürk ASKEF-in təsis etdiyi "Türk dünyası yaşayan kültür degeri" mükafatına layiq görülüb.

Törən zamanı Federasiyanın başqanı Savaş Ünal adıçəkilən mükafatı şairə təqdim edərək onun türk ədəbiyyatındakı xidmətlərini yüksək qiymətləndirib.




TEŞEKKÜR BELGESİ

Sayın: ELDAR İSMAYIL BÖYÜKTÜRK

*Avrasya Sanat Kültür Edebiyat ve Bilim Dernekleri Federasyonu tarafından düzenlenen, " Uluslararası İstanbul Şairler ve Sanatçılar Şöleni"ne katılımlarınızdan dolayı sizleri kutlar, başarılarınızın devamını dileriz.*

Savaş ÜNAL
ASKEF
Genel Başkanı

*İstanbul Haziran 2019*

Bu, şair-yazarın qardaş Türkiyədən aldığı ilk mükafat deyil. O, 2007-ci ildə Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyası tərəfindən türk ədəbiyyatının inkişafında xidmətlərinə görə "Türk ədəbiyyatına xidmət" mükafatı ilə də mükafatlandırılıb.

Şairin genişprofilli yaradıcılığı Türkiyədə fəaliyyət göstərən nüfuzlu universitetlərin də diqqətindən yayınmayıb. Belə ki, 2000-ci ildən indiyədək Ərzurum Universitetində onun seçilmiş şeirləri Anadolu türkcəsinə çevrilərək dərslik kimi tələbələrə tədris olunur.

Eldar İsmayıl Böyüktürk bundan başqa bir sıra nüfuzlu mükafatlara da layiq görülüb. O, 2011-ci ildə BMT-nin Təltiflər Şurasının Moskvadakı nümayəndəliyi tətəfindən "Şərəf" ordeni ilə mükafatlandırılıb. Qeyd edək ki, şairə bu mükafat Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının rəhbərliyinin təqdimatı əsasında verilib.

Onun vətənpərvərik ruhunda, məhəbbət mövzusunda yazdığı şeirləri, o cümlədən tarixi romanları – "Səttaroğlu", "Zülmətdə parlayan qılınc", "Bir igidin ömrü", "Göyçənin qisası qalır" bu gün də oxucuları tərəfindən sevilə-sevilə oxunmaqdadır.

## Nəsimi rayon İcra Hakimiyyəti ATU-nun Tədris Cərrahiyyə Klinikasında Səhiyyə İşçiləri Günü münasibətilə tədbir keçirib

**❍ Tədbirdə Nəsimi rayon ərazisində yerləşən səhiyyə müəssisələrinin rəhbərləri və səhiyyə işçiləri iştirak ediblər. Tədbirdə öncə Azərbaycan səhiyyəsinin inkişafı ilə bağlı hazırlanmış sənədli film nümayiş olunub.**



Tədbirdə çıxış edən Nəsimi rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov səhiyyə işçilərini peşə bayramı münasibətilə təbrik edib, onlara ən xoş arzularını bildirərək şərəfli işlərində uğurlar arzulayıb. Bildirib ki, ümummilli lider Heydər Əliyevin 2001-ci ildə imzaladığı Sərəncamla Səhiyyə İşçiləri Gününün təsis edilməsi onun həkimlik sənətinə münasibətini, tibb işçilərinin zəhmətinə yüksək dəyər verdiyini göstərir. İndi səhiyyəmizin hər ili, hər ayı irəliləyişlə, yeni-yeni uğurlarla yadda qalır. Asif Əsgərov onu da vurğuladı ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısı ilə müasir tibb ocaqları tikilir, təmirə ehtiyacı olan səhiyyə müəssisələri bərpa olunaraq müasir avadanlıqlarla təmin edilir. Səhiyyə sisteminin inkişafı, bu sahənin maddi-texniki bazasının, kadr potensialının gücləndirilməsi və infrastrukturun yeniləşdirilməsi daim diqqət mərkəzindədir.



Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi strateji siyasət kursunu layiqincə davam etdirən Prezident İlham Əliyevin həyata keçirdiyi sosial siyasət nəticəsində dövlət büdcəsindən səhiyyəyə ayrılan vəsait ildən-ilə artırılır. Bu da tibb müəssisələrinin fəaliyyətinin yaxşılaşdırılmasına, ümumilikdə tibbi xidmətin müasir tələblər səviyyəsinə qaldırılmasına yeni imkanlar açır.

Tədbirdə çıxış edən Tədris Cərrahiyyə Klinikasının direktoru, professor Surxay Hadıyev, Bakı şəhər Baş Səhiyyə İradəsinin rəisi Nelli Veyisova, II Daxili xəstəliklər kafedrasının dosenti Nağdəli Zamanov və başqaları Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyevin səhiyyəyə göstərdiyi diqqət və qayğıdan bəhs edərək bildirdilər ki, Azərbayan səhiyyəsi dünyanın inkişaf etmiş səhiyyəsi standartlarına uyğun kadrlarla, hər cür avadanlıqlarla və yüksək keyfiyyətə malik madditexniki baza ilə təmin olunmuşdur.

Tədbir konsert proqramı ilə davam edib.

**ATU-nun mətbuat xidməti**

# Ortopedik stomatologiya kafedrasında müasir standartlara uyğun dərslik nəşr edilib

İyunun 21-də Azərbaycan Tibb Universitetinin Tədris Stomatoloji Klinikasında yeni dərsliyin təqdimat mərasimi olub. Ortopedik stomatologiya kafedrasında tədris olunacaq "Dişlərin morfologiyası və oyma texnikası" adlı kitabın müəllifləri Ortopedik stomatologiya kafedrasının müdiri, professor Nazim Pənahov və adıçəkilən kafedranın assistenti Hanife Musayevadır.



Təqdimat zamanı professor Nazim Pənahov “MSV NƏŞR” Nəşriyyatında çap olunan dərsliyin 288 səhifədən ibarət olduğunu bildirərək, bunun tələbələr üçün Avropa standartlarına cavab verən bir vəsait olduğunu, kitabın 726 şəkillə illüstrasiyalşdığını qeyd edib. Professor N.Pənahov sonra ayrı-ayrı fəsillərdə hansı mövzulardan bəhs olunması ilə bağlı tədbir iştirakçılara ətraflı məlumat verib.

Həmmüəlliflərdən Hanife Musayeva da öz çıxışında kitabın tələbələr üçün dəyərli bir vəsait olduğunu qeyd edərək, onlar üçün bir rəhbər rolu oynayacağını bildirib: “Mən kafedrada çalışdığım ilk gündən qərara almışdım ki, tələbələrin keyfiyyətli təhsil almasında yaxından iştirak edəcək, xidmətimi əsirgəməyəcəm. Əsas məqsədim tələbələrə Avropa standartlarına uyğun təhsil vermək olub. Universitetdə işlədiyim müddətdə tələbələrin tədris zamanı xeyli əziyyət çəkdiyinin şahidi oldum. Ayrı-ayrı mənbələrdən əldə etdiyim materialları proqrama uyğun şəkildə uyğunlaşdıraraq materialların surətlərini tələbələrə verirdim. Kitab nəşr olunanadək biz bu əziyyətli yolu keçdik. Nə yaxşı ki, belə bir yüksək səviyyəli kitabın nəşrinə nail ola bildik”.

Təqdimat zamanı universitetin tədris hissə müdiri, dosent Samir Cavadov, Stomatologiya fakültəsinin dekan müavini Kamran Babayev, Tədris Stomatoloji Klinikanın direktoru, professor Alqış Səfərov, Ortopedik stomatologiya kafedrasının professoru Zöhrab Qarayev də çıxışlarında kitabla bağlı ürək sözlərini söyləyiblər. Kitabın əhəmiyyətinə toxunan natiqlər dərsliklə bağlı yüksək fikirlər səsləndiriblər.

Qeyd edək ki, dərslik yeni tədris ilində Stomatologiya fakültəsinin II kurs tələbələrinə tədris olunacaq. Dərslik tələbələrə ayrı-ayrılıqda dişləri, həmçinin dişlərin bir-birləri ilə münasibətlərini yaxından tanımaqda, onlar bu yöndə təməl bilikləri aşılamaqda və sadələşdirilmiş elmi metodologiya ilə onları klinik çalışmalara hazırlamaqda yaxından yardımçı olacaqdır.

Kitabın özəlliyi həm də ondan ibarətdir ki, çox işlədilən bəzi termin və ifadələrin doğma dilimizdə izahı, eləcə də həmin sözlərin latın, türk, rus və ingilis dillərində tərcümələri verilib. Burada dişlərin inkişafı, diş və paradontun quruluşu, dişlərin çıxması, diş formulları da



təfərrüatı ilə öz əksini tapıb. Həmçinin, ayrı-ayrı dişlərin morfologiyası geniş təsvir olunmaqla yanaşı, müxtəlif növ modelləşdirilən materiallardan istifadə etməklə dişlərin oyma texnikası da ətraflı şəkildə açıqlanıb.

Bir sözlə, mütəxəssislərimiz yeni nəşri tələbələr, rezidentlər və gənc həkimlər üçün dəyərli bir vəsait hesab edirlər.

**Qabil ABDULLAYEV**

# ATU-nun mütəxəssisi Avropa Pediatrlarının Konqresində məruzə ilə çıxış edib

**İyunun 13-də İrlandiyanın Dublin şəhərində Avropa Pediatrlarının Assosiasiyası, İrlandiyanın Tibb Kral Kolleci və s. təşkilatlar tərəfindən “The 9-th European Paediatric Congress, General Assembly of the European Paediatric Association Union of National Paediatric Societies and Associations” keçirilib.**



Üç gün davam edən tədbirdə ATU-nun II Uşaq xəstəlikləri kafedrasının dosenti, Təranə Tağı-zadə də 9-cu Avropa Pediatrları Konqresi və Avropa Pediatrları Assosiasiyasının Baş Assambleyasında spiker qismində iştirak və çıxış edi.

Tədbirin əsas mövzusu: “Uşaqların sağlamlığının idarə edilməsində terapevtik və profilaktik innovasiyalar” olub.

Qeyd edək ki, iki ildən bir keçirilməsi nəzərdə tutulan bu mötəbər elmi tədbir Avropa və Dünya alimləri arasında körpülər qurmaq, Avropa və digər qitələrdən təmsil olunan pediatrları bir araya gətirmək missiyasını yerinə yetirir.

Dosent T.Tağı-zadə bu mötəbər tədbirdə “National Immunization Calendar in Azerbaijan” mövzusunda çıxış edib. O, məruzəsində ölkəmizdə xəstəliklərin profilaktikası, Azərbaycan dövlətinin uşaqlara göstərdiyi qayğı, Azərbaycan Səhiyyə Nazirliyinin uşaq sağlamlığı ilə bağlı həyata keçirdiyi bir çox dövlət proqramları və Azərbaycan Pediatrlar Assosiasiyasının (“01-02.06.19 Karabakh, 10 km from the line of fire, a charity event of a comprehensive physical study of refugee children and IDPs by doctors of the Azerbaijan Pediatricians Association ”) qaçqınların məskunlaşdığı ərazidə keçirdiyi xeyriyyə-muayinə aksiyası barədə slaydlar vasitəsilə geniş məlumat verib. Nümayəndəmizin etdiyi geniş və dolğun çıxışına görə 9-cu Avropa Pediatrlar Konqresinin prezidenti, doktor Ellen Krayşell (President 9th Europaediatrics & Dean of Faculty of Pediatrics at the Royal College of Physicians of Ireland) T.Tağı-zadəyə dərin minnətdarlığını bildirib.

Qeyd edək ki, Avropa Pediatrlarının Konqresində EPA/UNEPSA-ın tədbirində ÜST-dən, İngiltərə Krallığından, İtaliyadan, Türkiyədən, İsveçrədən, o cümlədən 70-dən çox ölkədən tanınmış alimlər iştirak ediblər. Konqresdə iştirak edən gənc azərbaycanlı alimlərdən Bəyaz Babayeva (ATU), Ayaz Məmmədyarov, Mehriban İbrahimova və başqalarının adlarını çəkmək olar.

Xatırladaq ki, konqres 1654-cü ildə təşkil olunan İrlandiyanın Kral Tibb Kolleci yaxınlığında və 1591-ci ildə yaradılan tarixi Trinity Kollecinin bir çox tibb alimlərinin və Nobel mükafatlarının qaliblərinin (Graves, Corrigan, Stokes, Colles və s.) evləri olan, şəhərin mərkəzindəki İconic Konvensiya Mərkəzində təşkil olunmuşdur.

**Ə.CƏFƏROV,**
*II Uşaq xəstəlikləri kafedrasının əməkdaşı*

# ATU daha bir beynəlxalq təşkilata üzv qəbul edildi

**Çin Respublikasında “Bir Kəmər və Bir Yol Beynəlxalq Tibb Təhsili Alyansı”nın (BRIMEA) Ali Şurasının ikinci iclası və ali tibb təhsili üzrə III Beynəlxalq Forum keçirilib. ATU-nun Beynəlxalq Əlaqələr Şöbəsinin Mübadilə proqramları üzrə koordinatoru Müşfiq Orucov Çin Tibb Universitetinin (CMU) ev sahibliyi etdiyi bu tədbirlərdə iştirak edib. ATU təmsilçisi Forumda “Azərbaycanda tibb təhsili: dünəni, bu günü və sabahı” mövzusunda çıxış edib.**




M.Orucov qeyd edir ki, onun məruzəsi iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb, ona Azərbaycanda tibb təhsilinin təşkili ilə bağlı suallar ünvanlanıb.

Sevindirici haldır ki, Forum çərçivəsində Azərbaycan Tibb Universiteti BRIMEA-nın üzvlüyünə qəbul edilib.

M.Orucov səfər müddətində Çin Tibb Universitetinin rəhbərliyi ilə rəsmi görüşdə də iştirak edib. Görüş zamanı universitetlər arasında əməkdaşlıq haqqında geniş müzakirələr aparılıb.

Universitetimizin təmsilçisi Çin Kardiovaskulyar Assosiasiyasının təşkilatçılığı ilə Suzhou və Şanxay şəhərlərinin ən yüksək reytinqli xəstəxanaları ilə tanış olub, ölkənin tarixi yerlərini gəzib.

# Mürəkkəb ürək qüsuru olan körpə əməliyyat olunub

**ATU-nun Tədris Cərrahiyyə Klinikasında anadangəlmə ürək qüsuru olan daha bir körpə sağlamlığına qovuşub. Klinikanın uşaq ürək cərrahı Ramal Həsənov “Fallo tetradası”ndan əziyyət çəkən 9 aylıq körpəni uğurla əməliyyat edib.**



Cərrahın sözlərinə görə, “Fallo tetradası” 4 fərqli ürək anomaliyasının birlikdə olması nəticəsində meydana çıxan mürəkkəb ürək qüsurudur. Bu ürək qüsuru uşaqlarda ya doğulan kimi, ya da 1 yaşına qədərki müddətdə özünü büruzə verir. Bu zaman dəridə və selikli qişalarda göyərmələr müşahidə olunur. Bəzən belə “göy uşaqların” inkişafı normal səviyyəyə yaxın olur. Lakin əksər hallarda belə körpələr inkişafdan geri qalır. Çox vaxt bu uşaqlarda qəfildən ciddi göyərmə tutmaları olur. Bu zaman xəstələr huşunu itirə bilər.

“Fallo tetradası”ndan əziyyət çəkən daha böyük uşaqlarda hərəkət zamanı təngnəfəslik və huşunu itirməsi müşahidə olunur. Çünki xəstədə çirkli qanın hamısı ağciyərlərə gedib çatmır.

Fallo tetradasının radikal müalicəsi yalnız əməliyyatla mümkündür. Əməliyyatın icrası üçün uşaqda ağciyər arteriyaları kifayət qədər yaxşı inkişaf etməlidir.

ATU-nun Tədris Cərrahiyyə Klinikasına gətirilən 9 aylıq qızın çəkisi 5 kq olub. Medikamentoz müalicəyə baxmayaraq, uşaqda son aylar çəki artımı dayanıb, göyərmə tutması tezliyi isə çoxalıb. Kardiocerrah R.Həsənovun dediyinə görə, xəstənin dərhal əməliyyat olunmasına qərar verilib:

“Əməliyyat zamanı aorta damarı yalnız sol mədəcikdən qan alacaq şəkildə mədəciklər arasındakı dəliyi bağladıq. Sağ mədəciyin çıxış yolundakı darlığı pulmonar qapağı qoruyaraq aradan qaldırdıq. Əməliyyatdan sonra qan dövranı normal hala gəldi və göyərmə aradan qalxdı. Xəstə 3 gün reanimasiyada təqib edildikdən sonra xəstəxana müalicəsi stasionar şəraitdə davam etdirildi”.

Həkim bidirir ki, uşaq əməliyyatdan 10 gün sonra evə yazılıb.

# Tələbələrin “Həkim Qaşe” Rəsm klubu açılıb

Azərbaycan Tibb Universitetinin İctimai səhiyyə fakültəsinin Tələbə Gənclər Təşkilatının idarə heyəti tərəfindən yaradılmış “Həkim Quşe” rəsm klubunun açılışı olub . Açılış tədbiri ATU-nun həyətində, açıq havada baş tutub.

Məlumat üçün qeyd edək ki, Tələbə Gənclər Təşkilatının tərkibində hazırda Şən və Hazırcavablar, rus ,ingilis və alman dillərində danışıq, sağlamlıq, kitab və kino və.s klubları fəaliyyət göstərir. ATU Tələbə Gənclər Təşkilatının ümumilikdə 3 mindən çox üzvü var.

Tədbirdə rəsm çəkmək bacarığı olan tələbələr iştirak ediblər.

Mərasimdə ATU-nun Tələbə Gənclər Təşkilatının İctimai səhiyyə fakültəsi üzrə sədri Xatayə Quliyeva klubun təsis olunması və fəaliyyəti haqqında iştirakçılara məlumat verib. O, asudə vaxtlarını səmərəli və faydalı keçirməsi üçün tələbələri kluba üzvlüyə dəvət edib. Klubun sədri Günəş Əliyeva isə qurumun məqsəd və vəzifələrindən danışıb.

Sonda mərasim iştirakçılarının hər biri rəngli əl izlərini kağıza həkk edib.



# Azərbaycan Pediatrlar Assosiasiyasının cəbhə bölgəsində Uşaqların Beynəlxalq Müdafiə Günü ilə əlaqədar aksiyası



Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Azərbaycan Səhiyyə Nazirliyi, Azərbaycan Pediatrlar Assosiasiyası, Akademik Zərifə Əliyeva adına Azərbaycan Milli Oftalmologiya Mərkəzinin və Oftalmoloqlar Cəmiyyətinin təşəbbüsü ilə məcburi köçkünlərin və qaçqınların məskunlaşdığı Dördyol qəsəbəsində uşaqlar üçün tibbi xeyriyyə aksiyası keçirilib.

Ağdam rayonu ərazisində, cəbhə xəttinin 10 km-liyində yerləşən Laçın, Kəlbəcər, Zəngilan, Qubadlı, Ağdam rayonlarından olan məcburi köçkünlərin məskunlaşdığı Dörd Yol Ayrıcı adlanan qəsəbədə xeyriyyə aksiyası keçirilməsində məqsəd bu mürəkkəb, təhlükəli ərazidə məskunlaşmış uşaqlara, onların ailələrinə tibbi yardım göstərmək, həkim məsləhəti verməkdən ibarət idi. Cəbhə bölgəsində yaşayan uşaqların sağlamlığı ilə bağlı problemlərin erkən aşkarlanaraq müalicə edilməsi və ehtiyacı olan uşaqların reabilitasiya mərkəzlərinə yönəldilməsi diqqət mərkəzində olub.

Ağdam rayonunun "Qadın, uşaqlar və ailələrə dəstək mərkəzi"nin fəalı Yaqut xanım əvvəlcədən siyahı da tərtib etmişdir.

Aksiyada akademik Adilə Namazovanın rəhbərliyi ilə pediatrlar, uşaq nevropatoloqları, oftalmoloqlar, uşaq stomatoloqları muayinə aparıblar.

Qeyd etmək lazımdır ki, oftalmoloqların arsenalında səyyar klinika və yüksək texnoloji muayinə avadanlıqları müayinələrin yüksək keyfiyyətli olmasını təmin etmişdir. Ümumilikdə 325 uşaq ödənişsiz, kompleks muayinədən keçirilmiş, onlara müalicə təyin olunmuş, məsləhətlər verilmişdir.

Tədbirin keçirilməsinə xüsusi köməklik edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə və komitənin aparat rəhbəri Ceyran xanıma, Azərbaycan Səhiyyə Nazirliyi, Azərbaycan Milli Oftalmologiya Mərkəzi, Oftalmoloqlar Cəmiyyəti, 1 saylı Uşaq Stomatoloji poliklinikasının kollektivinə, Ağdam Rayonu İcra Başçısı və onun muavini Arzu xanıma, "Ağdamın uşaqları və ailələrinə yardım və dəstək mərkəzi"nin fəalı Yaqut xanıma, hər bir könüllüyə minnətdarlığımızı bildiririk.

Qeyd edək ki, ümumilikdə Ağdamın 18-dən çox kəndində yaşayan uşaqlara baxılıb. Müayinə olunan uşaqlara hədiyyələr verilib. Bu aksiyanın təəssüratları, foto şəkilləri Beynəlxalq Pediatrlar Assosiasiyasının FB səhifəsində, eləcə də ingilis dilində yayımlanıb və bununla da dünya pediatrları Qarabağ faciəsi ilə bağlı geniş məlumat əldə edib.

**T.TAĞI-ZADƏ,**
*II Uşaq xəstəlikləri kafedrasının dosenti*

# Əməkdaşımız beynəlxalq konqresdə iştirak edib




**◆ Patoloji fiziologiya kafedrasının dosenti Gülnarə İbrahimova Antalya Belekdə keçirilən "XXIII Ulusal Pediatrik Endokrinoloji ve Diyabet" konqresində iştirak edib.**

Patoloji fiziologiya kafedrasının dosenti Gülnarə İbrahimova Antalya Belekdə keçirilən "XXIII Ulusal Pediatrik Endokrinoloji ve Diyabet" konqresində iştirak edib.

Onun "Deneysel diyabette kan ve lenf lipid bileşiminin değişimi ile lenf akış hızı arasındaki bağlantı" mövzusunda çıxışı konqres iştirakçıları tərəfindən maraqla qarşılanıb.

Universitetimizin təmsilçisi uşaqlar arasında inkişaf edən endokrin xəstəliklərin reseptor və gen səviyyəsində öyrənilməsinə həsr olunmuş beynəlxalq konqresdə heyvanlar üzərində şəkərli diabetin eksperimental modelinin yaradılması, lipid mübadiləsinin qanda və limfada tədqiqi barədə ətraflı məlumat verib. Konqresin işində ABŞ və başqa ölkələrin alimləri də iştirak ediblər.

# Qida Təhlükəsizliyi Agentliyinin sədri bu sahədə çalışmaq istəyən məzunlarla görüşüb

**Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) sədri Qoşqar Təhməzli Agentlik və Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunda (AQTİ) çalışmaq istəyən universitet məzunları ilə görüşüb.**



Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunda keçirilən görüşdə Azərbaycan Tibb Universiteti, M.V. Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialı və Azərbaycan Dövlət Aqrar Universitetinin məzunları iştirak ediblər.

Görüşün keçirilməsində məqsədin bacarıqlı kadrların seçilərək agentlik və onun tabeliyində fəaliyyət göstərən qurumlarda işə cəlb edilməsi olduğu bildirilib. Qeyd olunub ki, peşəkar kadrların yetişdirilməsində maraqlı olan agentlik tərəfindən tələbələr Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu və tabeliyində fəaliyyət göstərən laboratoriyalarda müxtəlif təcrübə proqramlarına cəlb olunub.

# ATU-nun həkimi Mingəçevirdə aksiya keçirib

**◆ ATU-nun Tədris Cərrahiyyə Klinikasının əməkdaşı, tanınmış nevroloq Yeganə Rəşidova Ramazan bayramı münasibətilə Mingəçevir şəhərində ödənişsiz müayinə aksiyası keçirib.**



Şəhərdəki "Vital" Tibbi Diaqnostika Mərkəzində keçirilən aksiyada təcrübəli həkim Mingəçevirlə yanaşı, Yevlax, Ağdaş, Göyçay, İsmayıllı və Ağdamdan olan nevroloji problemlərdən əziyyət çəkən xəstələri də qəbul edib. Gün ərzində davam edən müayinələr zamanı sağlamlıq durumunda ciddi problemlər olan xeyli sayda şəxs müayinədən keçib, məsləhətlər alıb, onlara müalicə kursu təyin olunub.

Mütəxəssis Yeganə Rəşidova həyata keçirilən aksiya ilə bağlı Mingəçevirin təsadüfi seçilmədiyini bildirib: "Bu şəhərdən və ətraf bölgələrdən indiyədək çoxlu sayda pasiyentim olub. Şükürlər olsun, hamısının da sağlıq durumunu bərpa edə bilmişik. Adətən nəticəsi olan tibbi xidmət el arasında həkimə olan etimadı artırır. Məhz bu səbəbdən də mənə daxil olan çoxsaylı müraciətləri nəzərə alaraq müqəddəs ayda maddi durumu zəif olan insanlara təmənnasız tibbi yardım göstərməyi qərara aldım.

Xahişimə əsasən qəbuluma ilk öncə şəhid ailələri, maddi durumu aşağı olan insanlar, kimsəsizlər müraciət etdilər. Çalışdığım klinikada hər il bu bayram ərəfəsində belə bir aksiya keçirmişəm. Amma bu, bölgədə ilk aksiyam idi". Həkim deyib ki, aksiyada ən çox boyun fəqərələrində problemi olanlar, panik atak, baş, çiyin ağrıları, beyin pozulmalarından əziyyət çəkənlərlə rastlaşıb. İndiyədək Yeganə Rəşidovanın müalicəsi əsasında şəfa tapmış şəxslər də aksiyada iştirak edib. Mingəçevir, Yevlax, Ağdaş və Ağdam rayonundan olan bu şəxslərin bir çoxu təkrar müayinəyə gəlib, bir qismi isə doğmalarını müayinəyə gətirib. Sağaldıqlarına görə həkimə təşəkkür etmək niyyəti ilə qəbula gələnlər də olub. Ağdam rayon sakini Minə Səlimova: "Övladım cərrahiyyə əməliyyatı zamanı komaya düşdü. Yeganə xanımın müalicəsi sayəsində cəmi 3 gün ərzində balam yenidən həyata döndü. Ömrüm boyu ona borcluyam".

Yevlax rayon sakini Xalidə Yaqubova: "Mənim üçün Yeganə Rəşidova ən yaxşı həkim, xilaskardır".

Mingəçevir şəhər sakini Nahidə Bayramova: "Bu həkimin sorağını eşitmişdim. Gəldim görüşdüm, müayinə etdi. Onunla görüşdən o qədər müsbət təəssürat aldım ki, xəstəliyimi unutdum". Ağdaş rayon sakini Şahvəddin Əfsəddinov: "Son iki ay ərzində ölümcül vəziyyətdə olan qızımı yenidən həyata qaytaran Yeganə xanıma ömrüm boyu özümü borclu hesab edirəm".

Qeyd edək ki, Y.Rəşidova qəbuluna gələn bir çox imkansız xəstəyə təmənnasız olaraq özü ilə gətirdiyi dərman preparatları, bayram hədiyyələri də paylayıb.

# Tələbəmiz muncuqla Tibb Universitetinin gerbini hazırlayıb

**◆ Nərgiz Namazlı Azərbaycan Tibb Universitetinin II Müalicə-profilkatika fakültəsinin III kursunda oxuyur. Xüsusi istedada malik bu qız muncuqlardan ibarət bir-birindən gözəl əl işlərinin müəllifidir.**




Bu günlərdə isə o, təhsil aldığı universitetin gerbini hazırlayıb. 6 rəngdən istifadə edən N.Namazlı bu əl işinə görə 8 ay vaxt sərf etməli olub. Onun sözlərinə görə bu sənətin sirlərini nənəsi Şükufə Bağırovadan öyrənib.

"Mən bir neçə əl işimi vaxtilə oxuduğum Bakı şəhər 288 saylı orta məktəbə hədiyyə etmişəm. İstədim ki, yaranmasının 90 illiyi münasibətilə universitetimizin gerbini hazırlayım. Ötən ilin avqustunda başladığım həmin əl işini bu ilin martında başa çatdırdım. Gerbi də universitetimizə hədiyyə etdim" - deyən N.Namazlının elə ilk əl işi də Azərbaycanın Bayrağı və Gerbi olub. Muncuqdan Dövlətimizin rəmzlərini hələ 5-ci sinifdə oxuduğu zaman hazırlayıb. Bu əl işindən xoşları gələn məktəbin rəhbərliyi onun çiyinlərinə daha məsuliyyətli bir işi görməyi tapşırıblar: "Əl işimi görən müəllimlərim mənə Ulu Öndər Heydər Əliyevin portretini hazırlamağı tövsiyə etdilər. Əvvəl tərəddüd etdim ki, görəsən mən bu məsuliyyətli işin öhdəsindən gələ biləcəyəmmi? Amma hər tərəfdən dəstək gördüm və böyük həvəslə işə başladım. Portreti bir aya tamamladım. Hazırda portreti həmin məktəbdə saxlayıblar və keçirilən tədbirlərdə nümayiş olunur".

N.Namazlının başqa əsərləri də var. O, "Qız qalası", "Səməni", "Şaxta baba" və s. əsərlərin də müəllifidir.

Nərgiz bununla yanaşı həm də iplə tikmə ilə məşğuldur. Rəngbərəng iplərdən çanta, şərf, papaq, gülaltı və s. əşyalar toxuyan N.Namazlı əl işlərinin çoxunu dost-tanışa hədiyyə edib. Onun xobbisi təkcə bununla bitmir. Nərgiz eyni zamanda universitetin Tələbə Həmkarlar İttifaqı Komitəsinin büro üzvüdür. İctima işlərdə də yaxından iştirak edir. Dərslərində zərbəçi olan N.Namazlı unversitetdə keçirilən tədbirlərdə fəallığını əsirgəməyən tələbələrdəndir.

O, gələcəkdə də yeni və maraqlı əsərlər üzərində işləmək niyyətindədir.

Elə bizim də Nərgizdən istəyimiz budur. Uğurlar olsun!

**ATU-nun mətbuat xidməti**

# Əlverişli pəhriz

**XXI əsrin mühüm problemlərindən biri insanların müəyyən qismində bədən çəkisinin normadan artıq olmasıdır. Artıq bədən çəkisindən azad olmaq üçün çox vasitələr tətbiq edilir. Lakin onların bəzisi bədən çəkisini azaltdığı halda, orqanizmdə müxtəlif proseslərə təsir edərək sağlamlığa ciddi zərər vurur. Ona görə də artıq bədən çəkisinin azaldılmasında istifadə olunan vasitənin düzgün seçilməsi üçün mütəxəssislə məsləhətləşmək lazımdır.**



Bədən çəkisinin azaldılması üçün ən geniş istifadə olunan üsul pəhrizin tətbiq olunmasıdır. Pəhrizlə bədən çəkisinin azaldılmasında qəbul olunan qidanın kalorisinin azaldılması, müxtəlif meyvə, tərəvəz və ya meyvə qurusu, yaxud digər vasitələrdən geniş istifadə olunması tətbiq edilir. Bir sıra pəhrizlərin tətbiqi zamanı orqanizmdə bəzi qida maddələrinin çatışmazlığı baş verir. Biz bu yazıda ən geniş tətbiq olunan bir pəhriz növü haqqında danışırıq.

Qadınların çox qismi artıq çəkidən azad olmaq üçün adətən yerkökü pəhrizindən istifadə edir. Yerkökü A provitamininin, C, D, E, K vitaminlərinin, bir çox əhəmiyyətli karbohidratların, efir yağlarının əsl mənbəyidir. Yerkökünün müntəzəm qəbul olunması insanın boy-buxununu yaxşılaşdırmaqla yanaşı, onu cavanlaşdırır. Yerkökündən müxtəlif salatlar şəklində və yerkökü şirəsi çəkməklə geniş istifadə olunur. Yerkökünün istilik təsiri ilə işlənməsi zamanı onun tərkibinin xeyirli hissələrinin çoxu parçalanır, ona görə də daha yaxşı olar ki, yerkökü bişirilməmiş halda istifadə olunsun. Pəhriz məqsədilə yerkökü salatını qida kimi üç gün qəbul etmək lazımdır. Dördüncü gün isə qida rasionunu genişləndirmək olar. Beşinci gündən başlayaraq əvvəlki adi qida rasionuna qayıtmaq mümkündür. Bu zaman əsas kalorili olan yağlı, qızardılmış xörəklər rasiondan çıxarılmalıdır. Yaxşı olar ki, qidada suda bişirilmiş tərəvəz və qaynadılmış yağsız balıq istifadə olunsun. Yerkökü pəhrizinin tətbiqi zamanı şəkərsiz halda çoxlu yaşıl çay içmək lazımdır. Yaşıl çay orqanizmdən zərərli toksinləri xaric edir. Göstərilən qaydada dörd günlük pəhrizin tətbiq olunması ilə çəkini 2-3 kq azaltmaq mümkündür. Belə pəhriz tətbiq olunduqdan sonra insanın əhvalı əhəmiyyətli dərəcədə yaxşılaşır və orqanizm lazımi vitamin ehtiyatı ilə təmin olunur. Gələcək yazılarda artıq bədən çəkisindən azad olmaq üçün digər pəhriz vasitələrindən və onun müxtəlif vasitələrlə birgə tətbiqi üsullarından bəhs edəcəyik

**Sahib ƏHMƏDOV,**
**Fəridə ƏLİ,**
*Ümumi gigiyena və ekologiya kafedrasının dosentləri*

# Ekstremal dərəcədə az çəki ilə doğulan körpəni həyata qaytarmaq mümkün olub

◆ ATU-nun Tədris Cərrahiyyə Klinikasının həkimləri ekstremal dərəcədə az çəkili və çoxlu sağlıq problemləri ilə doğulan körpəni müalicə ediblər. 1 kiloqram çəki ilə doğulan körpə 1 aydan çox müalicə alıb.



Klinikanın neonatologiya şöbəsinin müdiri Aygün Rüstəmxanlının sözlərinə görə, yenidoğulmuş süni tənəffüs cihazına qoşulub: "Körpənin ağciyərlərində kəskin respirator distress sindromu olduğundan nəfəs ala bilmirdi. Onun ağciyərlərinin açılması üçün müalicə aparılıb, iki dəfə iynə vurulub".

A.Rüstəmxanlı bildirir ki, bu körpə erkən neonatal dövrdə çox kritik günlər keçirib. Lakin peşəkar komanda hesabına balacanı normal həyata qaytarmaq mümkün olub. Belə ki, neonatoloqların müayinəsi zamanı xəstədə dərin yarımçıq doğulmuş uşaqların xəstəliyi sayılan retinopatiya (ROP) qeyd olunub. Ələlxüsus yarımçıq doğulmuş uşaqlar uzun müddət süni nəfəs apararatına bağlı olanda, ağciyərdə problemlər aşkar ediləndə göz dibində nevaskulyar -rubioz damarlar əmələ gəlir. Nəticədə bu damarlar tor qişasını sıradan çıxarır və qopardır.

Qeyd edək ki, körpə klinikanın retinoloqlarının nəzarətində olub.

Oftalmologiya kafedrasının həkimi Leyda Kazımova yarımçıq doğulmuş uşaqda arqon lazer əməliyyatını icra edib və körpənin görməsi bərpa olunub.

Lakin körpənin problemləri bununla bitmir. Yarımçıq doğulmuş uşaqda həm də malrotasiya - anadangəlmə bağırsaq problemi də aşkar edilib. Klinikanın baş həkimi, uşaq cərrahı Ramiz Poluxovun sözlərinə görə, doğuşunun 31-ci günündə uşaq əməliyyat olunub. 40 dəqiqə davam edən əməliyyat nəticəsində onikibarmaq bağırsağı sıxan ledd atmaları ayrılaraq bağırsağın keçiriciliyi bərpa edilib.

Hazırda körpə normal qidalanır, normal defekasiyası (nəcis ifrazı) var, qusması yoxdur. Bir aydan çox davam edən kompleks müalicə nəticəsində uşaq ekstremal vəziyyətdən çıxa bilib. Körpənin valideynləri peşəkar yardıma görə Tədris Cərrahiyyə Klinikasının həkimlərinə təşəkkürlərini bildirirlər.

**ATU-nun mətbuat xidməti**

# Göz yaşının tədqiqi Parkinson xəstəliyinə meyilliliyi aşkar etməyə imkan verəcək

◆ **Alimlər hesab edir ki, göz yaşının tərkibinin tədqiqi Parkinson xəstəliyinin erkən diaqnostikasında istifadə edilə bilər.**



Parkinson kimi ciddi xəstəliyə meyilliliyi bu xəstəliyin ilk əlamətlərinin əmələ gəlməsindən əvvəl aşkar etmək mümkündür. ABŞ-ın Cənubi Kaliforniya Universitetindən olan elmi mütəxəssislər bu qənaətə gəliblər.

Onlar bu diaqnozu təyin etmək üçün göz yaşının tədqiqindən istifadə olunmasını təklif edirlər.

Həkimlər Parkinson xəstəliyi diaqnozu qoyulmuş 55 pasiyentin, həmçinin 27 sağlam könüllünün göz yaşlarını tədqiq ediblər. Məlum olub ki, göz yaşının tədqiqi Parkinson xəstəliyinə meyilliliyi erkən mərhələdə üzə çıxarmaqda kömək edir. Bu neyrodegenerativ xəstəliyin inkişafı zamanı göz yaşlarında müəyyən növ zülalların yüksək qatılığı müşahidə edilir.

Öz növbəsində, London Kral Kollecinin tədqiqatçıları tərəfindən müəyyən olunub ki, insanda Parkinson xəstəliyi əmələ gəlməmişdən 15-20 il əvvəl xəstəliyin erkən dövründə müşahidə olunan hərəkətlər və digər əlamətlər yarana bilər. İnsanın əhval-ruhiyyəsinə, yuxusuna və hərəkət funksiyasına təsir edən serotonin sisteminin dəyişməsi bu əlamətlərin əmələ gəlməsinə şərait yaradır. Vaxt ötdükcə bu əlamətlərin ağırlaşması müşahidə olunur.

Parkinson xəstəliyi Altsheymerdən sonra ikinci ən çox yayılan neyrodegenerativ xəstəlikdir. Parkinsonizmin xarakterik cəhəti onun tədricən inkişaf etməsidir. Müasir təbabət hələ ki, bu xəstəliyin çarəsini tapa bilməyib.

# Xərçəng xəstəliyinin müalicəsinə yeni yanaşma

◆ **Bir qrup alim xərçəng əleyhinə təbii komponenti bilavasitə sümük xərçəngi hüceyrələrinə yeritmək üçün xüsusi qişa hazırlayıb.**



AZƏRTAC "Xaytek+"ə istinadla xəbər verir ki, bu texnologiya dərmanın xərçəng hüceyrələrini cəmi bir neçə gün ərzində məhv etməsinə imkan verib. Sarıkökün tərkibindəki kurkumin maddəsi xərçəng şişləri əleyhinə xüsusiyyətləri ilə məşhurdur. Amma alimlər kurkuminin bu xüsusiyyətini uzun illər irimiqyaslı tədqiqatlara tətbiq edə bilməyiblər, çünki maddə peroral qəbul olunarkən orqanizm tərəfindən xərçənglə mübarizə apara biləcək qədər mənimsənilmir. Amerika alimləri kurkuminin xərçəng hüceyrələrinə yeridilməsinin üsulunu tapıblar. Bu üsul osteosarkoma hüceyrələrinin nümunəsində 100 faiz səmərəli olduğunu sübuta yetirib. Vaşinqton Universitetinin bir qrup alimi dərman üçün xüsusi kapsul və karkas işləyib hazırlayıb. Kapsulun və ya karkasın içində olan kurkumin orqanizmdə hərəkət edərkən öz xüsusiyyətlərini itirmir və yalnız şişlə təmas zamanı qişasından azad olur.

Karkas müəyyən qədər məsaməli kalsium fosfatdan 3D-printerdə çap edilib, kapsul isə piy molekullarından yaradılıb.

Belə texnologiya konkret pasiyent üçün implantlar hazırlamağa, karkasın insan toxumasına inteqrasiyasını təmin etməyə imkan verir.

Sonra alimlər bu texnologiyanı osteosarkoma hüceyrələrində sınaqdan keçiriblər.

Müalicə xərçəng hüceyrələrinin inkişafını 11 gün ərzində 96 faiz yavaşıdıb, habelə sağlam sümük toxuması hüceyrələrinin inkişafına kömək edib. Kurkumin antioksidant və iltihab əleyhinə xüsusiyyətləri ilə bərabər, əmələgətirici osteogen xüsusiyyətlərə də malikdir.

Testin sınaqları sümük xərçəngin terapiyasına, şiş kəsilib götürüləndən sonra sümük qüsurlarının bərpasına yeni imkanlar açır.

ABŞ-dan olan digər tədqiqatçılar qrupu isə kurkuminin qan dövranında hərəkət etməsi üçün onu suda həll etməyin üsulunu tapıb. Bu texnologiya da klinikadan əvvəlki tədqiqatlarda səmərəli olub.

## Allah rəhmət eləsin!

Farmakologiya kafedrasının əməkdaşları İnsan anatomiyası və tibbi terminologiya kafedrasının dosenti Elmira Ocaqverdizadəyə oğlu

**Rüfət Ocaqverdizadənin**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Farmakologiya kafedrasının əməkdaşları III cərrahiyyə kafedrasının assistenti Telman Əmirova anası

**Humay Əmirovanın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının əməkdaşları kafedranın dosenti Pəri Paşayevaya həyat yoldaşı

**Vaqif Əliyevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

ETM-in kollektivi iş yoldaşları Minəzzər Məmmədovaya qardaşı

**Səadəddin Zeynalovun**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verir.

## *Etibarsız sayılır*

II müalicə-profilaktika fakültəsinin II kurs, $317^{a-7}$ qrup tələbəsi Əliyev Ramin Əfrayıl oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Qarayev Çingiz Nazim oğluna 1977-ci ildə Azərbaycan Tibb Universiteti tərəfindən cərrahiyyə ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Səidova Səbinə Bəxtiyar qızına 2005-ci ildə Azərbaycan Tibb Universiteti tərəfindən funksional diaqnostika ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Musayeva Səbahət Vilayət qızına 2009-cu ildə Azərbaycan Tibb Universiteti tərəfindən funksional diaqnostika ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin IV kurs, $20^{a}$ qrup tələbəsi Məmmədova Sevil Əşrəf qızının adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin II kurs, $717^{i-1}$ qrup tələbəsi Albachaan Ghaıth Monir oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

**ÜNVANIMIZ:**
**Mərdanov qardaşları - $98^{c}$**
**2-ci mərtəbə,**
**Tel.: 595-24-97**
**tabibqazeti@gmail.com**

Lisenziya H - 022633
İndeks -0269
Sayı 2200